# Yüksək etimad və inam

***2024**-cü il fevralın 7-də keçirilən Zəfər seçkisi ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra ilk prezident seçkiləri kimi tarixə düşdü. Azərbaycan xalqı bu mühüm gündə öz iradəsini ifadə edərək növbəti 7 il üçün dövlət başçısını müəyyənləşdirdi. Bu seçkilər həm siyasi proses, həm də 44 günlük Vətən müharibəsində, Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində əldə edilən qələbənin rəmzi kimi yaddaşlara həkk olundu. 7 fevral prezident seçkiləri Azərbaycan xalqının iradəsinin parlaq təzahürü oldu.*

2024-cü il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirildi. Mərasimdə birinci xanım Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər. Mərasimdə Prezident İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm". Daha sonra dövlət başçısı müqəddəs "Qurani-Şərif"ə əl basaraq and içdi: "Əlimi "Qurani-Şərif"ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam". Mərasimdə çıxış edən dövlət başçısı, ilk növbədə, prezident seçkilərində ona yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürünü bildirdi. Prezident İlham Əliyev bir daha xalqını əmin etdi ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyünün qorunması üçün əlindən gələni əsirgəməyəcək.

Dövlət başçısı andiçmə mərasimindəki tarixi çıxışı ilə ölkənin daxili və xarici siyasət kursunun əsas konturlarını cızaraq, qarşıdakı prioritetləri dəqiq müəyyənləşdirdi. Bu çıxışda azad olunmuş ərazilərin sürətli bərpasından tutmuş, regionda yeni kommunikasiya xətlərinin açılmasına qədər bir sıra vacib məsələlər yer aldı. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, məcburi köçkünlərin doğma yurdlarına qayıdışı bu siyasətin əsas istiqamətlərindən biri kimi ön plana çıxdı. Prezident İlham Əliyev Azərbaycanın keçdiyi möhtəşəm inkişaf yoluna geniş nəzər salaraq, ölkənin əldə etdiyi uğurları faktlarla diqqətə çatdırdı. Həmin dövr təkcə nailiyyətlərlə zəngin olmadı, həm də qələbələr ili kimi tarixə həkk olundu. Bu illər, eyni zamanda qarşıya çıxan çətinliklərin dəf edildiyi, xalqın ən böyük arzusunun - Qarabağın işğaldan azad olunmasının gerçəyə çevrildiyi bir zaman oldu. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edərək milli qürur və gücünü bütün dünyaya sübut etdi.

Azərbaycan xalqı növbəti dəfə qalib Liderin ətrafında sıx birləşdi və ona mütləq etimad göstərdi. Prezident İlham Əliyevin iyirmi ildən artıq bir müddətdə xalqın dəstəyi ilə ölkəni inamla irəli aparması, Azərbaycanın beynəlxalq mövqeyini möhkəmləndirməsi, reytinqini durmadan yüksəltməsi xalqın ona olan inamını daha da artırır. Bu illər ərzində Azərbaycan inkişaf və tərəqqi yolunda addımladı, qarşıya çıxan çətinliklərə, maneələrə baxmayaraq, irəliyə doğru böyük bir yürüş etdi. Prezident İlham Əliyev hələ 2003-cü ildə xalqın etimadını qazandığı ilk gündən bəyan etmişdi ki, qarşıya qoyulan bütün vəzifələr icra ediləcək. Bu illər sübut etdi ki, dövlət başçısı verdiyi bütün vədləri yerinə yetirib. Qarabağın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması, məcburi köçkünlərin doğma yurdlarına qayıdışı, ölkəmizin siyasi və iqtisadi gücünün artırılması - bunların hamısı müstəqil Azərbaycanın şanlı tarixinin parlaq səhifələridir.

Prezident İlham Əliyevin andiçmə mərasimində vurğuladığı prioritet məsələlərdən biri şübhəsiz ki, Böyük Qayıdış proqramının icrasıdır. Artıq illərdir doğma yurd həsrəti ilə yaşayan yüz minlərlə insanın arzusu gerçəyə çevrilir. Bu proqram çərçivəsində 2026-cı ilin sonuna qədər 140 min soydaşımız öz doğma torpaqlarına qayıdacaq, Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən canlanacaq. Bölgədə genişmiqyaslı quruculuq işləri sürətlə davam edir. Qayıdışın rahat və təhlükəsiz olması üçün məktəblər, xəstəxanalar, uşaq bağçaları, idman kompleksləri inşa edilir, yollar çəkilir, nəqliyyat infrastrukturu yenidən qurulur. Bölgənin elektrik təsərrüfatı tam modernləşdirilir, dəmir yolları bərpa olunur. Artıq Füzuli və Zəngilan beynəlxalq hava limanları fəaliyyətə başlayıb, yaxın zamanda Laçında da yeni hava limanı istifadəyə veriləcək. Qayıdan hər bir vətəndaş üçün yeni, müasir tələblərə uyğun şəhər və kəndlər salınır, tarixi yaşayış məntəqələrinin bərpası diqqət mərkəzindədir.

Digər məsələ, Azərbaycanın nəqliyyat və logistika sahəsindəki inkişafıdır. Dövlət başçısı qeyd edib ki, bu gün Azərbaycan regionun deyil, artıq dünya miqyasında mühüm nəqliyyat və logistika mərkəzi kimi tanınır. Ölkəmizin əlverişli coğrafi mövqeyi və həyata keçirilən strateji layihələr Azərbaycanı qlobal tranzit yollarının ayrılmaz hissəsinə çevirib. Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Prezidentin də qeyd etdiyi kimi, dövlətimizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Bu gün Azərbaycan regionun deyil, artıq dünya miqyasında mühüm nəqliyyat və logistika mərkəzi kimi tanınır. Ölkəmizin əlverişli coğrafi mövqeyi və həyata keçirilən strateji layihələr Azərbaycanı qlobal tranzit yollarının ayrılmaz hissəsinə çevirib. Prezident də vurğulayıb ki, bizim üstünlüyümüz ondan ibarətdir ki, biz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir.

Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi sözlər bir daha göstərdi ki, Azərbaycan Türk dünyasının ayrılmaz hissəsidir və bu birlik bizim üçün strateji prioritetdir. "Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır", - deyən dövlət başçısı Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanı gücləndirmək istiqamətində ardıcıl siyasət yürütdüyünü bir daha bəyan etdi. Həqiqətən də Azərbaycanın liderliyi və təşəbbüsləri nəticəsində Türk dövlətləri arasında iqtisadi, siyasi və hərbi əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı möhtəşəm Qələbə Türk dünyasında qürur hissi ilə qarşılandı. Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və digər qardaş ölkələr Azərbaycanın haqq savaşında onu dəstəklədilər. Bu, qardaşlıq ruhunun sözlərdə yox, əməli dəstəkdə öz əksini tapdığının sübutu idi.

Bu gün Azərbaycan Türk dünyası üçün mühüm strateji mərkəzə çevrilib. Zəngəzur dəhlizinin açılması, enerji və nəqliyyat layihələrinin birgə icrası Türk dünyasının iqtisadi inteqrasiyasını gücləndirən əsas amillərdir. Xüsusilə Orta Dəhliz boyunca birgə layihələrin həyata keçirilməsi Türk ölkələrinin Avropa və Asiya arasında əsas tranzit yoluna çevrilməsinə şərait yaradır. Bu güc həm siyasi arenada, həm də iqtisadi sahədə özünü getdikcə daha aydın şəkildə göstərir. Türk Dövlətləri Təşkilatının güclənməsi, qardaş ölkələr arasında əməkdaşlığın genişlənməsi Azərbaycan üçün təkcə diplomatik xətt deyil, eyni zamanda tarixi və milli bir missiyadır. Bu birlik bizə həm yeni imkanlar yaradır, həm də gələcək nəsillərə daha güclü və mütəşəkkil bir Türk dünyası miras qoymaq imkanı verir.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika.- 2025.- 14 fevral (№ 32).- S.4.